**BƏKTAŞİ İNAYƏT HEYDƏR OĞLU**
**(1931-1989)**
**Ədəbiyyatşünas**

25 mart 1931-ci ildə anadan olmuşdur. 1952-1954-cü illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Naxçıvan filialının Dil-ədəbiyyat şöbəsini bitirmiş, 1954-1959-cu illərdə isə Bakı Dövlət Universitetinin Filologiya fakültəsində təhsil almışdır. Təhsilini başa vurduqdan sonra Azərbaycan ədəbiyyatı tarixi kafedrasının aspirantı olmuşdur. 1961-ci ildə həmin kafedrada baş müəllim vəzifəsində çalışmışdır. 1963-cü ildə namizədlik, 1979-cu ildə doktorluq dis-sertasiyası müdafiə etmişdir. 1980-ci ildən ömrünün sonuna qədər Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru vəzifəsində çalışmışdır. 6 monoqrafiyanın, 100-dən çox elmi əsərin müəllifidir. “XX əsr uşaq mətbuatında ədəbiyyat”, “Abdulla bəy Divanbəyoğlu”, “Firudin bəy Köçərlinin yaradıcılıq yolu” və digər kitabların müəllifidir.